# QARA MƏŞƏDİYEV – 80



Tanınmış dilçi alim, türkoloq, AMEA İmadəddin Nəsimi adına Dilçilik İnstitutu Müasir Azərbaycan dili şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru, professor Qara İbrahim oğlu Məşədiyevin 80 yaşı tamam olur. Q.İ.Məşədiyev 1939-cu il mayın 15-də Gədəbəy rayonunun Şınıx mahalının Göyəmli kəndində anadan olmuşdur.

1946-1956-cı illərdə Zamanlı kənd orta məktəbində oxumuşdur. 1958-59-cu illərdə hərbi xidmətdə olmuşdur. 1961-66-cı illərdə M.F.Axundov adına Pedaqoji Dillər İnstitutunun Qərbi Avropa dilləri fakültəsinin alman-Azərbaycan dilləri şöbəsində təhsil almış, 1968-ci ildə Gədəbəy rayonunun Maarif kəndində müəllim vəzifəsində işləmiş, 1968-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Müasir Azərbaycan dili şöbəsində böyük laborant işçi vəzifəsində işə başlamışdır.

Azərbaycan dilçiliyində artıq tam formalaşmış, öz ənənələri olan onomastika məktəbi var. Sovet dövründə Azərbaycanda bu sahə ilə bağlı monoqrafik araşdırmalar aparılmış, beynəlxalq və respublika səviyyəli konfranslar keçirilmiş, toplular, məcmuələr, monoqrafiyalar çap edilmişdir. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bu sahə daha da sürətlə inkişaf etmişdir.

Azərbaycan dilçiliyində onomastika sahəsində öz möhürünü qoymuş alimlərimizdən biri məhz filologiya elmləri doktoru, professor Qara Məşədiyevdir.

Onun əsl insani keyfiyyətləri, humanizmi hər zaman özünə qarşı hörmət və ehtiram hisslərinin yaranmasına səbəb olmuşdur. Mərdlik və xeyirxahlıq simvolu olan Qara Məşədiyev bu gün də öz nəcib əməllərini davam etdirir, insanlıq və alimlik ləyaqətini həmişə uca tutur.

1969-cu ildə Dilçilik İnstitutu Ədəbiyyat İnstitutundan ayrılıb, müstəqil olur. Q.Məşədiyev 1974-cü ildə AMEA-nın müxbir üzvü, prof. Z.Budaqovanın rəhbərliyi altında yazdığı “Müasir Azərbaycan dilində adlıq cümlə” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1974-1979-cu illərdə AMEA İ.Nəsimi adına Dilçilik İnstitutunun müasir Azərbaycan dili şöbəsində kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində çalışmış, 1989-2011-ci illərdə Onomastika və tətbiqi dilçilik şöbəsində müdir vəzifəsində işləmişdir. Hazırda Müasir Azərbaycan dili şöbəsində baş elmi işçidir.

Q.Məşədiyevin 1991-ci ildə müdafiə etdiyi doktorluq dissertasiyası belə adlanır: “Qafqaz ərazi və tayfalarının təsvirini öyrənən məcmuə”də qeydə alınmış Azərbaycan (türk) mənşəli toponimlərin tarixi linqvistik təhlili” (СМОМПК). Burada çox böyük elmi əhəmiyyəti olan Azərbaycan (türk) mənşəli toponimlərin tarixi linqvistik təhlili verilib. Bəs tədqiqatçının bu mövzuya müraciəti nə ilə bağlıdır? XX əsrin ikinci yarısında Ermənistan və Gürcüstan ərazilərində, ümumən bütün Qafqazda türkmənşəli

coğrafi adların kütləvi şəkildə dəyişdirilərək türklaylı toponimlərin məqsədli şəkildə məhv edilməsi prosesi güclənməyə başladı. Buna görə də Qara Məşədiyev yer-yurd adlarının araşdırılmasına daha ciddi yanaşmış, intensiv tədqiqatlar aparmışdır. Dilçilik sahəsində məşhur alimlər: akad. Ağamusa Axundov, AMEA-nın müxbir üzvü Afad Qurbanov, prof. Səyyarə Mollazadə, akad. Tofiq Hacıyev, prof. Həsən Mirzəyev, prof. N.Məmmədov və başqaları Q.Məşədiyevin doktorluq dissertasiyasının elmi məziyyətlərini yüksək qiymətləndirmişlər. Alimin bu elmi işi türklaylı toponimlərin öyrənilməsi sahəsindəki boşluğun doldurulmasında böyük rol oynamışdır.

Azərbaycan toponimlərinin əsas tədqiqatçılarından biri kimi professor Qara Məşədiyev aşağıdakı kitabların müəllifidir: "Zaqafqaziyanın Azərbaycan toponimləri" (Bakı, 1990), "Nitq hissələrinin semantikası (oçerklər)" (1998); "İzahlı onomastik terminlər lüğəti" (2005); "Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili" (I kitab, 2007); "Azərbaycan toponimləri. Ensiklopedik lüğət" (I cild, 2007); "Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili" (II kitab, 2010); "Bakı küçələri: adlar və talelər" (2013), "Azərbaycan dilində ayamaların izahlı lüğəti" (dialekt materialları əsasında) (2018) və s.

Professor Qara Məşədiyev Azərbaycan toponimiyası üzrə respublikada aparıcı mütəxəssis olduğundan Milli Məclisin Toponimika Komissiyasının daimi üzvü seçilmişdir.

Professorun "Zaqafqaziyanın Azərbaycan toponimləri" (Bakı, 1990), "Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili" (Bakı, 2010) əsərləri Azərbaycan dilçiliyində toponimika ilə bağlı yazılmış ən dəyərli tədqiqatlardan biridir. Hər iki monoqrafiyada faktlar "Qafqaz ərazi və tayfalarının təsviri məcmuəsi" (СМОМПК) adlı dəyərli yazılı qaynaqdan götürülmüşdür. Professor Qara Məşədiyevin araşdırmalarının bir çoxu məhz toponimlərin linqvistik şərhinə, onların etimoloji təhlilinə, leksik-semantik xüsusiyyətlərinin aydınlaşdırılmasına həsr olunmuşdur.

Qara Məşədiyev həmçinin bu günə qədər (elə indi də) bir çox ali təhsil ocaqlarında professor (Lənkəran Universitetində, ADPU-da, Azərbaycan Universitetində və b.) kimi çalışmış, dilçiliyin çeşidli sahələrinə aid mühazirə və seminarlar aparmışdır. O həm də elmə gətirdiyi tələbələri (gənc aspirant və doktorantları) ilə də haqlı olaraq fəxr edə bilər.

Qara Məşədiyevin 2018-ci ildə nəşr olunan ayamalarla bağlı monoqrafiyası alimin 80 yaşında da elmi fəaliyyətini böyük cəsarətlə, zəhmətlə davam etdirdiyini sübut edir. Qara Məşədiyevin "Azərbaycan dilində ayamaların izahlı lüğəti" (Bakı, 2018) monoqrafiyası dialekt materialları əsasında yazılmışdır. Maraqlıdır ki, Qara müəllim *ləqəb* deyil, *ayama* terminini işlətmişdir. Çünki *ayama* sözü məhz daha çox dialektlərdə, canlı xalq danışıq dilində işlənir. Yəni Qara müəllim canlı xalq danışıq dilinin ifadə və sözlərini terminologiyaya gətirməklə xalq dilinə hörmət və rəğbətini ifadə etmişdir.

Müdriklik, kamillik dövrünü yaşayan prof. Qara Məşədiyev artıq 80-i haqlamışdır. Onun elmi-pedaqoji fəaliyyətinin 53 ili tamam olur. Amma o, yenə də cavanlıq ruhu və tükənməz enerjisi ilə araşdırmalarını davam etdirir. Elmi kadrlar – dilçilər ordusu yetişdirir, Azərbaycan elminin ən aktual, perspektivli problemlərinə dair elmi-nəzəri əsərlər yazmaqda nümunə olur. 80 yaşın mübarək, əziz dostumuz, həmkarımız Qara müəllim, 90-nında 100-ündə görüşərik...

*İsmayıl Məmmədli*
*Baba Məhərrəmli*